COZEF MÖRFİ

# ŞÜURALTININ GÜCÜ

Tərcüməçi:
Aygün Çırpanlı

qanun nəşriyyatı

JOSEPH MURPHY

# THE POWER

## OF YOUR SUBCONSCIOUS MIND

“Şüuraltının gücü” kitabında Cozef Mörfi şüuraltına təsir üçün çoxsaylı sadə metodlar göstərir. Əgər onları düzgün tətbiq etsəniz, bu sizə şüuraltı problemi yaranarkən düzgün həll yolunu tapmağa, yüksək əxlaqi dəyərlər qazanmağa və pis vərdişlərdən xilas olmağa kömək edəcək.

Kitab bütün yaşlardan olan geniş oxucu çevrəsi, xüsusən də gənc nəsil üçün nəzərdə tutulub.

**Joseph Murphy** **THE POWER OF YOUR SUBCONSCIOUS MIND**
**Cozef Mörfi** **ŞÜURALTININ GÜCÜ**
Bakı, Qanun Nəşriyyatı, 2024, 288 səh.

Janr: psixologiya/özünüinkişaf
Yaş qrupu: 16+
Ölçü: 130x200 mm
Cild: yumşaq
Çapa imzalandı: 25.09.2024

Naşir: Şahbaz Xuduoğlu
Tərcüməçi: Aygün Çırpanlı
Redaktor: Seymur Verdizadə
Korrektor: Əsəd Qaraqaplan
Texniki redaktor: Aygül Yelmarlı
Mətn dizaynı: Rahilə Şamilqızı
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pr., 76
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-36-628-0

© Qanun Nəşriyyatı, 2019; 2024
© Joseph Murphy, 1963

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım
hüquqları Qanun Nəşriyyatına məxsusdur.
Kitabın təkrar və hissə-hissə nəşri “Müəlliflik hüququ və əlaqəli
hüquqlar haqqında” Azərbaycan Respublikasının Qanununa ziddir.

# BU KİTAB SİZİN HƏYATINIZDA NECƏ MÖCÜZƏ YARADA BİLƏR?

Mən hər xalqın, irqin nümayəndəsinin və hər təbəqədən olan insanların həyatında möcüzələrin baş verdiyini öz gözlərimlə görmüşəm. Şüuraltınızın sehrli gücünü tətbiq etməyə başlayan kimi sizin də həyatınız möcüzəvi şəkildə dəyişəcək. Bu kitab düşüncə tərzinizin və təxəyyül şəkillərinizin sizin həyatınızı necə formalaşdıracağı və müəyyənləşdirəcəyindən bəhs edəcək. Çünki insanın tipi və mahiyyəti onun şüuraltının məzmunu ilə eynidir.

- ***Bilirsinizmi niyə?***

Niyə bir insanın həyatı kədərə bürünüb, digərinin həyatı isə xoşbəxtlik saçır? Niyə bir insan var-dövlət və hörmət

sahibi ikən, onun qonşusu yoxsulluq və məhrumiyyətlər içində yaşayır? Nəyə görə biri qeyri-əminlik və qorxu içində əzab çəkərkən, digəri gələcəyə əminliklə baxır? Niyə birinin dəbdəbəli villası varkən, digəri bütün ömrünü gecəqonduda çürüdür? Nə üçün bir insan uğur dalınca uğur qazanarkən, digəri dayanmadan aşağı gedir? Niyə bir natiq öz nitqi ilə insan kütlələrini cəlb edərkən, digərinin səsinə heç kim səs vermir? Niyə bir insan dahiyanə ixtiralar edərkən, digəri süst və ruhsuz işləyir? Niyə biri hansısa sağalmaz xəstəlikdən qurtulurkən, digəri həmin xəstəlikdən ölür? Nəyə görə bir çox yaxşı və mömin insanlar dəhşətli cismani xəstəliklərdən əziyyət çəkərkən, tanıdığımız və o qədər də xeyirxah olmayan insanların əla sağlamlığı və parlaq uğurları olur? Niyə bir qadının xoşbəxt nikahı baş tutarkən, digəri əri ilə bağlı yalnız məşəqqət və xəyal qırıqlığı yaşayır? Niyə? Bu və bir çox digər sualların cavabı şüur və şüuraltının mahiyyət və funksiyalarıdır.

- ***Mən niyə bu kitabı yazdım?***

Mən bu kitabı yazarkən təkcə bu və ya digər suala cavab vermək arzusunu rəhbər tutmamışam, həm də qarşılıqlı əlaqəni göstərmək istəmişəm. Mən sizin mənəvi həyatınızın ilkin səbəblərini və ən dərin sirlərini sadə sözlərlə izah etməyə çalışmışam. Çünki həmişə əmin olmuşam ki, insan qəlbinin hətta ən gizli qarşılıqlı əlaqələrini son dərəcə asan və sadə yolla ifadə etmək mümkündür. Ona görə də mənim kitabım sizin emalatxananızda, ofis və ya ailənizdə eşitməyə vərdiş etdiyiniz sadə dildə yazılıb. Mən əminliklə rica edərdim ki, bu səhifələri və oradakı metodları tədqiq

edəsiniz. Çünki tamamilə əminəm ki, sizi hər cür xaos və iztirabın əlindən ala biləcək, ümidsizlik və məyusluqdan azad edəcək, hər cür uğursuzluqdan qorumağa qadir möcüzəvi gücü kəşf edəcəksiniz. Bu kitab sizə layiq olduğunuz mövqeyə nail olmaq üçün güc verəcək. O sizə bütün çətinliklərin öhdəsindən gəlməyə, mənəvi yorğunluq və fiziki əzablardan xilas olmağa kömək edəcək, azadlığa, xoşbəxtliyə və ruhi sakitliyə gedən birbaşa yolu göstərəcək. Şüuraltınızın möcüzəvi gücü hər birinizə şəfa gətirəcək və sizdə yeni güc oyadacaq. Qəlbinizin gücü üzərindəki hakimiyyət sizi, indi əsirliyində olduğunuz minlərlə qorxu və narahatlıqdan xilas edəcək.

- ***Möcüzəvi gücün açarı***

Fikrimcə, insanın özünün şəfa tapması bizim şüuraltımızın möcüzəvi gücünün ən heyrətamiz sübutudur. Mən 42 il əvvəl tibbdə "sarkoma" adlanan bədxassəli şişdən bu yolla xilas olmuşam. Məni yaradan həmin güc orqanizmimi məhz həyat cərəyanı ilə idarə edir. Şübhəsiz, mənim tətbiq etdiyim metodikanın belə təsviri istənilən oxucunu hər insanın qəlbinin dərinliyində yaşayan sonsuz şəfa gücünə bütünlüklə inanmağa vadar edəcək. Dostumun və tibbi məsələlər üzrə məsləhətçimin müdaxiləsi sayəsində mən qəfildən, bədənimi formalaşdıran, bütün orqanlarımı yaradan və ürəyimi döyündürən həmin yaradıcı müdrikliyin öz yaratdığını hər şeydən yaxşı sağaldacağını anladım. Köhnə atalar sözündə deyildiyi kimi: "Həkim yaraları sarıyır, amma Tanrı sağaldır".

- ***Möcüzələr "effektli" duaların cavabıdır***

"Elmi dua" anlayışı altında biz elmi metodlar vasitəsilə müəyyən məqsədlərin həyata keçirilməsində istifadə olunan, zəkanın şüurlu və şüuraltı gücünün harmonik qarşılıqlı əlaqəsini başa düşürük. Bu kitab sizə mənəvi gücünüzün sonsuz rezervlərinə girişi təmin edən texnikanı öyrədəcək. Bu gücün cəlb olunması sayəsində ürəyinizin bütün arzuları həyata keçəcək.

Siz daha xoşbəxt və daha zəngin həyata can atırsınız? Onda bu yeni möcüzəvi gücdən istifadə edərək həyat yolunuzu daha rəvan edin, şəxsi və işgüzar problemləri həll edərək ailənizdə harmoniya yaradın. Bu kitabı mütləq bir neçə dəfə oxuyun! O sizə bu möcüzəvi gücün fəaliyyətini, eləcə də məqsədinizə çatmaqda qəlbinizin dərinliyində mürgüləyən nurlanma və hikmətdən necə istifadə etməyi göstərəcək. Öz şüuraltınıza hökm etməyi öyrənin – bu çox asandır! Qəlbinizin sonsuz gücünü açacaq yeni, elmi əsaslanmış metoddan istifadə edin! Bu kitabı diqqətlə oxuyun, qəlbinizi və ağlınızı onun möcüzəvi məsləhətləri üçün açın. Bu metodun heyrətamiz nəticələrinə şəxsən əmin olun. Mən qətiyyətlə inanıram ki, bu səhifələrin oxunuşu həyatınızın dönüş nöqtəsi ola bilər və olacaq.

- ***Hər insan dua edər***

Siz "effektli" dua edə bilirsinizmi? Duanın sizin gündəlik həyatınızda davamlı yer almasından nə qədər zaman keçib? Bədbəxtlik, xəstəlik və təhlükə anında, ölüm qorxusu zamanı dualar biixtiyar dodaqlarınızda səslənir. Siz gündəlik qəzetlərə nəzər salın! Demək olar ki, hər bir qəzetdə, bütün ölkə insanlarının, "sağalmaz"

xəstəliyə düçar olan uşağın şəfa tapması və yaxud yerin dərinliklərinə səpələnmiş bir qrup mədən işçisinin xilası və ya Yer üzündə sülhün bərqərar olması üçün eyni duanı etdiyilə bağlı məqaləyə rast gələcəksiniz. Ölümcül təhlükədən xilas olan şaxtaçılar sonralar xilasedici komandanın gəlişinə qədər bir neçə əzablı saatı dualarla keçirdikləri haqda danışırdılar. Reaktiv təyyarənin pilotu məcburi eniş edərkən xilası üçün dua edirdi. Şübhəsiz ki, bədbəxtlik anında duanın gücü bizim ixtiyarımızdadır. Onda niyə onu gündəlik həyatınızın daimi və faydalı hissəsinə çevirərək kəsərli gücündən hər gün istifadə etmək istəmirsiniz? Mətbuatın iri başlıqlarında, dramatik situasiyalarda duanın eşidilməsi və hökm kimi səslənən sözlərin onun effektivliyini təmin etməsi haqda yazırlar. Bəs uşaqların səsləndirdiyi çoxsaylı itaətkar duaları, bizim açılan süfrə üçün Tanrıya minnətdarlıq dualarımızı və insanın sadəlövh bir sədaqətlə öz Yaradanına müraciət dualarını necə dəyərləndirmək olar? Mənim işim duanın müxtəlif forma və motivlərini təhqiq etməyə imkan verdi. Mən duanın gücünü öz üzərimdə sınaqdan keçirdim. Eləcə də duası eşidilən çoxsaylı insanla söhbətləşdim və əməkdaşlıq etdim. Əsas çətinlik insanları "effektli" dua etməyə öyrətməkdir. Fəlakət anında insan çox zaman bütün zəkası ilə düşünə və hərəkət etməyə qadir olmur. Ona görə də ona sadə, səhvsiz işləyən formul lazımdır.

- ***Bu öz üslubunda yeganə əsərdir***

Bu kitabın başlıca üstünlüyü praktik faydalılıqdır. O, oxucunu bir sıra sadə və asan tətbiq oluna bilən, hər yerdə

və istənilən vaxt onun ixtiyarında olan formullarla tanış edəcək. Mən bu sadə qaydaları bütün dünyada bir çox qadın və kişilərə öyrətmişəm. Bu yaxınlarda isə Los-Ancelesdəki dinləyiciləri – onlar minlərlə idi – burada qeyd olunan ən vacib müddəalarla tanış etdim. Bir çox dinləyici mənim mühazirəmi dinləmək üçün 300-400 kilometr uzaqlıqdan gəlməyə belə ərinməmişdi. Bu əsər sizin üçün xüsusi maraq kəsb edəcək. Eyni zamanda sizə izah edəcək ki, niyə çox zaman etdiyiniz duanın tamamilə əksinə olan hadisələr baş verir. Bütün dünyada bir çox insanlar mənə eyni sualı verirlər: "Nəyə görə mən çoxlu dua etsəm də, səsimi eşidən olmadı?" Bu kitabda siz bu cür şübhələri inkar edəcək səbəblər haqda da öyrənəcəksiniz. Burada təsvir olunan, hətta şübhə duyduğunuz zaman belə doğru cavabı tapmağa kömək edəcək çoxsaylı, şüuraltına təsir metodları bu kitaba daim sizin ixtiyarınızda olan və istənilən həyati situasiyada tamamilə etibarlı məsləhətçi dəyəri verəcək.

- ***Siz nəyə inanırsınız?***

İnsanın duasını inancın mövzusu və ya məzmunu daha effektli etmir. Bir insanın şüuraltı onun fikirlərinə və təsəvvürünə reaksiya verdikdə duaları daha tez eşidilir. İnancın bu qanunu öz təsirini bütün dünya dinlərinə yayır və ona əlavə olaraq psixoloji həqiqilik qatır. Xristianlar, buddistlər, müsəlmanlar və iudistlər eyni qaydada eşidilir. Bu onların müəyyən bir dinə və ya inanca aid olduğuna, müəyyən ritual, ayin, liturgiya və qurbanlar verdiyinə görə deyil. Yalnız onların dualarının eşidiləcəyinə şüurla və ruhən inandıqlarına görədir. Həyat qanunu inanc qanunu ilə eynidir. Və "inanc" anlayışını qısaca və dəqiq olaraq "fi-

kir" və "ağlın məzmunu" şəklində müəyyənləşdirmək olar. İnsanın qəlbində, bədənində və taleyindəki işlər eynən onun necə düşündüyü, hiss etdiyi və inandığı kimi baş verir. Sizin fəaliyyət şəklinizi və onun motivlərini dərindən anlamağa əsaslanan texniki fəndlərin sistematik istifadəsi öz şüuraltınızın gücünü istifadə etməklə sizə yer üzündəki səadət payını gətirəcək. Mahiyyət etibarilə eşidilən dua – müəyyən məhrəm arzuların həyata keçməsindən başqa bir şey deyil.

- ***Arzu duaya bərabərdir***

Hər bir insan sağlamlığa, xoşbəxtliyə, əminliyə, ruhi sakitliyə, arzularının reallaşmasına can atır. Buna baxmayaraq, çox az adama uğur nəsib olur. Bu yaxınlarda bir universitet professoru mənə dedi: "Mən bilirəm ki, düşüncə tərzimdə dəyişiklik və həssaslığımda yeni oriyentasiya məni mədə xorasından birdəfəlik xilas edərdi. Amma təəssüf ki, bunu həyata keçirmək üçün texniki fəndləri və metodları bilmirəm. Mənim ağlım narahat bir şəkildə bir problemdən digərinə keçir və mən özümü məyus və bədbəxt hiss edirəm". Beləcə, bu professor tam sağlamlıq arzu edirdi: ona lazım olacaq şey, məhrəm arzusunun həyata keçməsini ona hədiyyə edəcək fikirlərin gedişini anlamaq idi. Bu kitabda təsvir olunan şəfa metodlarının tətbiqi onun sağlamlığını qısa müddətdə tam bərpa edəcək.

- ***Hər bir kəs bütün insanlığı birləşdirən ümumbəşəri idrakda iştirak edir***

Emerson

Sizin şüuraltınızın möcüzəvi gücü siz doğulmazdan əvvəl də mövcud idi; o, istənilən kilsədən, hətta bizim dün-

yamızdan daha əvvəl də var idi. Böyük, əbədi həqiqətlər və həyati prinsiplər bütün dinlərdən daha qədimdir. Bu əminlikdən yola çıxaraq aşağıdakı başlıqları öyrənməyi təklif edirəm. Çünki onlar sizə möcüzəvi, sehrli, hər şeyi dəyişə bilən güc verəcək. Bu güc həyatın qəlbinizə və bədəninizə vurduğu yaraları sağaldacaq, qorxudan əzab çəkmiş ruhunuzu sakitləşdirəcək və sizi yoxsulluq, uğursuzluq, bədbəxtlik, ehtiyac və məyusluğa uğrama əzabından həmişəlik xilas edəcək. Bunun üçün yalnız gerçəkləşdirmək istədiyiniz səadətlə eyniləşmək lazımdır. Və şüuraltınızın yaradıcı gücləri buna uyğun olaraq reaksiya verməyə başlayacaq. Elə bu gün, indicə başlayın və möcüzə sizin həyatınıza girəcək. Ruhdan düşməyin, günün parlaq işığı bütün kölgələri qovanadək yorulmadan irəli gedin.

# TALEYİNİ
# İDARƏ ET

# 1

# İÇİNİZDƏKİ XƏZİNƏ

İdrakınızın diqqətini özünüzə çəkib orada tükənməz bir xəzinə ilə qarşılaşan kimi sabit bir zənginlik sizi əhatə edəcək. Qəlbinizin daxilində olan "qızıl damar"ın kəşfi sizə xoşbəxt həyatdan gözləyəcəyiniz hər şeyi bəxş edəcək. Bir çox insan lunatik kimidir. Çünki bu daxili tükənməz müdriklik və sonsuz sevgi xəzinəsinin mövcudluğundan xəbərsizdirlər. Buna baxmayaraq, hər bir insan bu mənbədən ürəyinin istədiyi hər şeyi əxz edə bilər. Maqnitləşmiş polad qırığı öz kütləsindən təqribən on iki dəfə ağır yükü qaldıra bilər. Amma maqnitləşməmiş halda isə eyni metal qırığı heç lələyi də yerindən tərpədə bilməz. Bu müqayisə insana da aiddir. Maqnetizmlə doymuş insan gələcəkdə də öz gücünə tam əmin olur. O bilir ki, yalnız qalib gəlmək üçün doğulub və uğur ardınca uğur qazanacaq. "Maqnetizmdən məhrum" insana isə qorxu və şübhə əziyyət verir. Əgər

qarşısına uğurlu fürsət çıxırsa, o, öz-özünə deyir: "Axı bunun axırı pis qurtaracaq. Bu mənim bütün var-dövlətimi əlimdən ala bilər. Özümü gülünc duruma salaram". Bu cür düşüncə tərzi olanda insan həyatda heç vaxt heç nəyə nail olmayacaq. Çünki onda irəli getmək üçün cəsarət yoxdur və aciz bir şəkildə yolun yarısında dayanır.

Burada sirrin açılışını görəcəksiniz. Siz maqnit kimi xoşbəxtliyi, zənginliyi və hakimiyyəti özünüzə çəkəcəksiniz.

- ***Bütün zamanların ən böyük sirri***

Sizin fikrinizcə, bütün zamanların ən böyük sirri nədir? Atom enerjisi sirri? Atomun parçalanması nəticəsində dəhşətli güclərin ayrılması? Neytron bombası? Ulduzlara uçuş? Axı söhbət nədən gedir? Bütün sirlərin ən böyüyünü harada açmaq olar? Onu necə açmaq olar? Necə tətbiq etmək olar? Bütün bu sualların cavabı sadə olduğu qədər həm də gözlənilməzdir. Haqqında danışdığımız sirr – şüuraltının möcüzəvi gücündən başqa bir şey deyil. Bu qədər çoxsaylı tapmacanın cavabını burada kim axtara bilərdi?

- ***Şüuraltınızın heyrətamiz gücü***

Siz şüuraltınızın heyrətamiz gücünü açmağa başlayan kimi həyatınıza heç vaxt təsəvvür belə etməyəcəyiniz güc, zənginlik, sağlamlıq, xoşbəxtlik və sevinc gələcək. Bu gücü qazanmağa ehtiyacınız yoxdur. O artıq sizdə var. Siz sadəcə onun mahiyyətini və fəaliyyət şəklini dərk etməlisiniz ki, onu həyatın bütün sferalarında və problemlərdə uğurla tətbiq edə biləsiniz.

Bunun üçün zəruri bilik və bacarığı bu kitabda təsvir olunan sadə proses və texniki fəndləri oxuyarkən alacaqsınız. Hər şey qarşınızda yeni bir işıqla peyda olacaq.